AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

ƏLİ HƏSƏNQULU OĞLU HƏŞİMOV

# AZƏRBAYCAN TARİXİ NƏSRİNDƏ NAXÇIVAN MÖVZUSU: MƏRHƏLƏLƏR, PROBLEMLƏR, ŞƏXSİYYƏTLƏR

**5716.01- Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**NAXÇIVAN – 2014**

İş AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İsa Əkbər oğlu Həbibbəyli**
Azərbaycan MEA -nın həqiqi üzvü, əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər**: **Yavuz İbrahimxəlil oğlu Axundlu**
Filologiya üzrə elmlər doktoru, professor

**Həsənəli Cahangir oğlu Eyvazov**
Filologiya üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat**: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı tarixi" kafedrası

Müdafiə 29 noyabr 2014-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ.7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina, Böyük Akt zalı

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___ _______ 2014-ci il tarixdə göndərilmişdir.

**FD.02.121 Dissertasiya Şurasının**
**elmi katibi**: **dosent İ.Z.CƏFƏROV**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf tarixinin ayrı-ayrı mərhələləri, dövrləri müxtəlif zamanlarda fərqli şəkildə dəyərləndirilmiş, dövrün ədəbiyyatşünaslığının imkanları səviyyəsində sistemləşdirmələr aparılmışdır. Belə ki, ədəbiyyatşünaslığımız XX əsrdə sürətli inkişaf mərhələsini yaşadı. Bədii nümunəyə yanaşma prinsipi müxtəlif metod və cərəyanlara aid edilən yaradıcı şəxs və əsərlərin məhz yeni tələblər səviyyəsində fərqləndirilməsi baxımından öz ənənələrini formalaşdırdı. XIX əsrin əvvəllərindən başlayaraq ədəbiyyatımızda qabarıqlaşan nəsr ənənəsi, romançılıq anlayışı formalaşmaqla XX əsrdə yeni tədqiqat sahələrini müəyyənləşdirdi. XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda ictimai-siyasi şəraitin mürəkkəbliyi, Cümhuriyyət mərhələsi, sonradan sovetlər birliyinin Azərbaycana yad ideologiya gətirməsi ədəbiyyatın inkişafına da öz təsirini göstərdi. Bir tərəfdən də xarici ədəbiyyata maraq, dünya ədəbi prosesi ilə ayaqlaşmaq, təsirlənmək cəhdləri XX əsrin əvvəllərində ədəbiyyatımızda yeni istiqamətlər üçün zəmin yaratdı. Romantizm, realizm, sentimentalizm kimi ədəbi cərəyanların güclü inkişafı məhz bu dövrə təsadüf etdi.

Ümumiyyətlə, XX əsrdə ədəbiyyatımız zəngin və çoxşaxəli inkişaf yolu keçdi, zəngin mövzu dairəsi, janr müxtəlifliyi ilə ədəbiyyatşünaslığımızda yeni tədqiqat istiqamətləri formalaşdırdı. XX əsrin əvvəllərindən başlayaraq genişlənməkdə olan roman ənənəsi möhkəmləndi. Məmməd Səid Ordubadi yaradıcılığında ilkin nümunələri ilə formalaşma mərhələsini yaşayan tarixi roman janrı isə əsrin sonlarına doğru yeni mövzu dairəsi və forma zənginliyi qazandı. Müstəqillik illərinə qədər Azərbaycanın qədim və zəngin tarixinin diqqət çəkən, maraqlı dövr, hadisə və şəxsiyyətlərindən bəhs edən ədəbi nümunələr yarandı. Amma bu nümunələr əsasən, sovet ideologiyasının təsirində idi. Ümumilikdə götürdükdə isə sovet dövründə yazılan tarixi nəsrimizdə diqqət mərkəzinə çəkilən məsələlərin milli müstəviyə keçirilməsi zamanı müəyyən problemlər ortaya çıxırdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ötən əsrin 60-cı illərindən etibarən ədəbiyyatımıza göstərdiyi qayğı, ciddi, milli mövqeyə malik yazıçıları müdafiə etməsi ədəbiyyatımızın yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb oldu. Ümummilli lider ədəbiyyata münasibətini ifadə edərək deyirdi: "Mənim ədəbiyyata olan münasibətimi sübut etməyə elə bir ehtiyac yoxdur. Bunu Azərbaycanda yaxşı bilirlər. Bu, mənim vəzifəmə görə deyildir, mənim təbiətimdir, içimdən gələn

hissiyyatlarımdır. Məndə həmişə-hələ uşaq, gənc yaşlarımdan şeirə, ədəbiyyata, incəsənətə, mədəniyyətə çox böyük həvəs olubdur, həmişə maraqlanmışam”[1]. Dahi rəhbərin göstərdiyi qayğının nəticəsində tarixi nəsr sahəsində yeni ədəbiyyat köklü ənənələr və milli təmayüllər üzərində formalaşmağa başladı.

Qeyd etməliyik ki, tədqiqata cəlb olunmuş əsərlərə indiyə qədər bu araşdırmada əsas götürülən prizmadan yanaşılmamış, nəticədə geniş perspektivlərə malik olan həmin sahədə bir boşluq yaranmışdır. Ədəbiyyatşünaslığımız üçün qənaətbəxş hesab olunmayan belə bir vəziyyət, həmçinin məkrli qonşularımızın Naxçıvanla bağlı apardıqları bədnam siyasətə layiqli cavab verilməsinin zəruriliyi tarixi nəsrimizdə Naxçıvan mövzusunun tədqiqini aktual bir problem kimi qarşıya çıxarır. Müstəqillik dövründə yazılan ədəbi nümunələrin sistemli və problematik şəkildə tədqiqinə ehtiyacın olması da bu mövzuda aparılan araşdırmaların zəruriliyini şərtləndirir. Tarixi nəsrdə Naxçıvan mövzusunun sistemli şəkildə araşdırılması bütövlükdə yaxın və uzaq keçmişimizin bədii inikası məsələlərinin bir sıra mühüm səhifələrinə yeni təfəkkür işığında elmi münasibət bildirmək, elmi prinsiplərlə müvafiq dəyərləndirmələr aparmaq baxımından da aktuallıq daşıyır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan tarixi nəsrinin ayrı-ayrı nümunələri təşkil edir. Birbaşa, yaxud dolayısıyla Naxçıvanla bağlı olan tarixi romanların mövzu dairəsi, ideya istiqaməti, bədii məziyyətləri, tarixilik prinsipinin qorunması məsələləri tədqiqat işinin predmetini müəyyənləşdirir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatda əsas elmi məqsəd Azərbaycan tarixi nəsrinin inkişafı boyunca Naxçıvan gerçəkliklərinin bədii təqdimi səviyyəsinin araşdırılmasıdır. Dissertasiyada qarşıya qoyulan məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

-Naxçıvandan bəhs edən tarixi nəsr nümunələrini, dünya ədəbi təcrübəsi kontekstində təhlilə cəlb etmək;

-Ədəbi nümunələr əsasında nəzəri məsələləri şərh etmək;

-Naxçıvan tarixinin ayrı-ayrı dövrlərinin tarixi nəsrdə əksi, tarixi həqiqətlərlə bədii həqiqətlərin qarşılıqlı əlaqəsi məsələlərini üzə çıxarmaq;

-Dövlətçilik ənənələrimizin, qəhrəmanlıq tariximizin tarixi roman, povest və hekayələrdə təcəssümü səviyyəsini aşkara çıxarmaq;

- Ədəbi nümunələrdə görkəmli şəxsiyyətlərin obrazının yaradılması məsələlərini incələmək;

---

[1] “Azərbaycan” qəz., 21 may 1998

-Tarixi nəsrdə sənətkar və zaman probleminin qoyuluşu və həlli yollarını izləmək;

-Naxçıvanın qədim və orta əsrlər tarixinin tarixilik və bədiilik kontekstində inikasının aydınlaşdırmaq;

-Bölgənin XIX əsr- XX əsrin əvvəllərindəki sosial-siyasi, ədəbi-mədəni vəziyyətini əks etdirən tarixi nəsr nümunələrini təhlil edib dəyərləndirmək;

-Naxçıvanın sovet dövründəki ictimai-siyasi durumuna ədəbi nümunələrdə münasibəti aydınlaşdırmaq;

-Müstəqillik uğrunda mübarizənin, müstəqillik dövründəki həqiqətlərin bədii nəsrdə təqdimi səviyyəsini və istiqamətlərini aşkarlamaq.

**Mövzunun tədqiqi tarixi.** Azərbaycan tarixi nəsrində Naxçıvan mövzusunun bədii inikası barədə xeyli araşdırmalar aparılmışdır. Bu istiqamətdə söylənilmiş fikir və mülahizələri belə ümumiləşdirmək olar:

1. Ötən əsrin 50-60-cı illərinə qədərki tədqiqatlar. Bunlar əsasən müvafiq bədii əsərlər barədəki məqalə və resenziyalar, eləcə də bəzi monoqrafiyalardakı yığcam təhlildən ibarətdir.

2. İkinci mərhələ XX əsrin 50-60-cı illərindən müstəqilliyə qədərki dövrü əhatə edir. Bu mərhələdə qələmə alınan tarixi nəsr nümunələri ilə bağlı müəlliflər, yaxud ədəbi tənqid tərəfindin mətbuatda yazılan müxtəlif yazılar əks olunmuşdur[1]. Eləcə də ədəbi polemikalar, resenziyalar, Azərbaycan nəsrinin keçdiyi yolu xarakterizə edən monoqrafik tədqiqatlar və Azərbaycan nəsrini xarakterizə edən monqrafiyaların tərkibindəki müvafiq bölmələr [2], konkret olaraq tarixi nəsr əsərləri ilə bağlı elmi-tədqiqat əsərləri və monoqrafik tədqiqatlar[3] və s. qeyd olunmalıdır.

---

[1] İsmayıl M. Tarixi nəsr ədəbi tənqidimizdə //Azərbaycan jurnalı, 1985, № 4, s. 92-97; Əliyev R. Böyük roman, dar koma. "Ədəbiyat və incəsənət" qəz., Bakı, 1989, 15 dekabr; Həbibbəyli İ.Ə. Ədəbiyyatda Naxçıvan, Naxçıvanda ədəbiyyat // Naxçıvan Dövlət Universiteteinin Xəbərləri. Humanitar elmlər seriyası, 2005, №16, s. 3-10; Səfərov Ş. Əsrlərin sirri. "Azərbaycan müəllimi" qəz., Bakı, 1991, 7 iyun.

[2] Qəhrəmanlı N. Müasirlik və tarixilik. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1983, 16 dekabr; Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s; Yusifli V.Ə. Azərbaycan romanı: dünən, bu gün //Azərbaycan jurnalı, 1987, № 12, s. 164-181; Qarayev Y.V. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 492 s; Yusifli V.Ə. Tənqid və bədii söz. Bakı: Mütərcim, 2002, 208 s; Salamoğlu T.(Cavadov). Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: E.L NPŞ MMC, 2009, 476 s; Nəbiyev B. A. Roman və müasir qəhrəman. Bakı: Yazıçı, 1987, 296 s; Paşayev M. Azərbaycanda ədəbi məktəblər. Bakı: Ziya-Nurlan, 2004, 391 s; Əlişanoğlu T. Mustafayev. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı: Elm, 2006, 212 s, 144.

3. Əhməd Sami El Aydi. Müstəqillik dövrü Azərbaycan romanı: mövzu, problematika və sənətkarlıq məsələləri: filol. üz. fəl. dok. dis. avtoref. Bakı: 2010. 32 s; Abdullayeva A.N. Azərbaycan mənzum tarixi dramaturgiyası və müasirlik: fil üz. fəl. dok. dis. avtoref. Bakı: 2008. 26 s; Eyvazov H.C. Azərbaycan tarixi dramlarında ədəbi şəxsiyətin bədii obrazı. Naxçıvan: 2009, 186 s; Feyziyeva R.M. Azərbaycan tarixi romanlarının dilində dialekt leksikası: fil. üzr. fəl. dok. dis. avtoref. Bakı: 2012. 27 s.

3. Üçüncü mərhələ isə müstəqillik dövrünə aid tədqiqatları əhatə edir. Müstəqilliyin verdiyi imkan nəticəsində sovet dövründə haqqında danışılması məqbul sayılmayan, tarixi dövrümüzün daha əhəmiyyətli dönəmləri qələmə alınmışdır. Nəticə olaraq həm sovet dövründə aparılmış tədqiqatlara həm də müstəqillik illərində qələmə alınan tarixi romanlar tədqiqata cəlb olunmuşdur. Eyni zamanda Azərbaycan nəsri haqqında müəyyən dissertasiyalar müdafiə olunmuşdur [1]. Sənədli roman, tarixi roman, tarixi-xroniki roman, tarixi-publisistik roman və s. haqqında orijinal elmi nəticələr əldə edilmiş, tarixi nəsr nümunələrində tarixi dövr, yazıçı mövqeyi və ədəbi əsərdəki reallıqlar üçlüyündən bəhs olunmuş, tarixi nəsrdə tarix və müasir gerçəklik məsələsi diqqət mərkəzinə çəkilmişdir [1].

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiyada indiyəcən az öyrənilmiş sahələrdən biri- Naxçıvanın timsalında Azərbaycan regionlarının ədəbiyyatda əksi məsələlərindən bəhs olunur. Tarixi nəsrdə Naxçıvan mövzusunun öyrənilməsinin vacibliyini şətləndirən cəhətlər isə çoxdur. Bütün bunları əsas götürməklə dissertasiyada ilk dəfə olaraq Azərbaycan tarixi nəsrində Naxçıvan mövzusu mərhələlər, problemlə, şəxsiyyətlə üzrə bütöv və sistemli şəkildə tədqiq olunmuşdur.

-Sovet dövründə qələmə alınan müvafiq tarixi roman, povest və hekayələr yeni təfəkkür işığında dəyərləndirilmiş, eyni zamanda müstəqillik dövründə yazılmış analoji nümunələr də araşdırılmışdır. Mövzu ilə bağlı tarixi nəsr nümunələri tədqiqata cəlb olunmuş, azərbaycançılıq ideologiyası əsas götürülmüş, məsələlərə milli müstəvidən yanaşılmışdır;

-Tarixi nəsr nümunələri tarixi mənbələr, əsərlər mətbuat və ədəbi tənqidin fikirləri əsasında müqayisəli şəkildə dəyərləndirilmiş, hadisələri dolayısıyla, epizodik şəkildə Naxçıvanla bağlı olan nəsr nümunələri də təhlilə cəlb olunmuşdur;

- Tarixi nəsr nümunələrində Naxçıvanın tarixi, müxtəlif dövrlərdəki iqtisadi-siyasi, sosial-mədəni vəziyyəti, məişəti, ictimai-siyasi reallıqların təqdimi məsələsinə toxunulmuş, tarixi reallıqlarla ədəbi həqiqətin mütənasibliyi kimi məsələlər tədqiqata cəlb olunmuşdur;

---

[1]. Nəbioğlu V.N. Ədəbi tənqid və tarixi roman. Bakı: Nurlan, 2008, 232 s; Axundova N. Azərbaycan romanı: 120 il. Bakı: Elm, 2011, 332 s; Salamoğlu. T.Cavadov. Müasir Azərbaycan romanının poetikası. Bakı: Elm, 2005, 280 s; Eyvazlı H. C. Həmid Arzulunun yaradıcılığında tarixilik. Naxçıvan: Məktəb, 2003, 77 s; Qasımov H.Ə. Azərbaycan romanının inkişaf problemləri. Bakı: Nurlan, 2008, 336 s.

- Tarixi dövr, müasir gerçəklik, yazıçı mövqeyi üçlüyü və buna təsir edən amillər dəyərləndirilmişdir;

-Sovet dövründə də müstəqillik illərində də yazılan tarixi nəsr nümunələrinə azərbaycançılıq ideologiyası prizmasından, müasir ədəbiyyatşünaslığın tələblərindən yanaşılmışdır;

- Tarixi nəsrdə Naxçıvan mövzusu nəticə etibarilə ədəbiyyatda Azərbaycan mövzusunun üzvi tərkib hissəsi kimi öyrənilmişdir.

**Tədqiqatın metodoloji əsası.** Qarşıya qoyulan problemin həlli üçün dissertasiyada Azərbaycan tarixi roman janrının keçdiyi yol izlənilmiş, janrın nəzəri prinsiplərinə uyğun olaraq bu günə qədərki tədqiqatlar haqqında ümumiləşmiş fikir ortaya qoyulmaqla yanaşı tarixi-müqayisəli və sistemli-təhlil metodlarından istifadə olunmuşdur. Bununla yanaşı ədəbiyyatşünaslığın tarixi nəsrə həsr edilmiş monoqrafik araşdırmalarına, müvafiq ədəbiyyatşünaslıq ənənəsinə, dünya elmi təcrübəsinə istinad edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Məlumdur ki, tarixi nəsrimiz Azərbaycan tarixinin daha çox diqqət çəkiləsi məqamlarına müraciət edir. Beləliklə, qədim və zəngin tariximizin ayrı-ayrı dövrləri ədəbi mühitin, elmi ictimaiyyətin diqqətinə təqdim olunur. Tədqiqat işində Azərbaycan tarixi nəsrinin ayrı-ayrı nümunələri dövrləşdirilmiş, tariximizin təbliği vasitəsi olan əsərlərdə tarixi faktların düzgün əks olunması məsələlərinə diqqət yönəldilmişdir ki, bu da tariximizin müxtəlif dönəmləri haqqında informasiyaların dərinləşdirilməsinə yardım edir. Dissertasiya tarixi nəsr sahəsində aparılacaq tədqiqatlar üçün müvafiq baza ola bilər. Eləcə də ədəbiyyat tarixi ilə bağlı oçerklərin hazırlanmasında,dərsliklərin yazılmasında, elmi mühazirələrin hazırlanmasında dissertasiyadan istifadə etmək olar. Ayrı-ayrı sənətkarların yaradıcılığı barədə araşdırmalarda da dissertasiyaya istinad oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** İş AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın mövzusu 15 noyabr 2011-ci il tarixdə AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyyətinin iclasında təsdiqlənmiş, həmçinin Azərbaycan Respublikası Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının, Ədəbiyyatşünaslıq üzrə Problem Şurasında (22 oktyabr 2013, protokol № 22) təsdiq olunmuşdur. Dissertasiyanın əsas məzmunu, müddəa və nəticələri müəllifin ölkəmizin, eləcə də Türkiyə, Ukraynanın müxtəlif elmi jurnallarında nəşr olunan məqalələrində öz əksini tapmışdır. “2. Uluslararası Türk Dili ve Edebiyyatı Sempozyumu” (2011), ( “Nizami dönəmini konu alan tarihi romanlarda dil üslup keyfiyyetleri”),

Nizami Gəncəvi dövrünü əks etdirən tarixi romanlarda Naxçıvan (Beynəlxalq konfrans) (2013), Bakı Slavyan Universitetində keçirilən beynəlxalq konfrans (2013), ("Naxçıvan ədəbi mühitində qələmə alınmış romanlarda ümummilli lider Heydər Əliyev obrazı"), Bakı Slavyan Universitetində keçirilən beynəlxalq konfrans (2014), ("Müstəqillik illərində qələmə alınan tarixi romanlarda tarixilik və müasirlik"). Uluslararası Tarih Boyunca Türk İdaresinde Ermeniler Sempozyumu (2014), ("Ermeni-Azerbaycan münasibetleri Azerbaycan tarihi nesrinde"). I Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu (2014), ("Azerbaycan tarihi romanlarında Selçuklu dönemi"). 3 Ahlat-Avrasya bilim, kültür ve sanat sempozyumu (2014) ("Azerbaycan romanında Kazım Karabekir paşa") kimi bir sıra beynəlxalq və ölkə miqyaslı elmi konfrans və simpoziumlarda məruzələr edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı, tədqiq tarixi, tədqiqatın obyekti, məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası, quruluşu haqqında müvafiq məlumat verilir.

**"Naxçıvanın qədim və orta əsrlər tarixi bədii nəsrdə"** adlanan birinci fəsil iki yarımfəsildən ibarətdir. Birinci fəslin birinci yarımfəsli **"XIV əsrə qədərki Naxçıvan tarixinin ədəbi inikası"** adlanır.

Azərbaycan ədəbiyyatında tarixi nəsrin uzunmüddətli təcrübəsi vardır. Tarixi nəsrdə Azərbaycan mövzusunun üzvü tərkib hissəsi kimi Naxçıvan mövzusunun işlənməsi janrın mövzu dairəsində əhəmiyyətli yer tutur. Akademik İsa Həbibbəylinin də qeyd etdiyi kimi "...qədim və orta əsrlərdə Naxçıvanda ictimai fikir, elm, mədəniyyət, ədəbiyyat, maarifçilik geniş şəkildə inkişaf etmişdir"[1]. Problemə bu istiqamətdən yanaşıldıqda orta əsrlər Naxçıvan tarixindən bəhs edən əsərlərdə tariximizin obyektiv şəkildə əks etdirilməsi problemi ədəbiyyatşünaslığımızın qarşısında duran əhəmiyyətli məsələlərdəndir. Eyni zamanda, orta əsrlər dövr tariximizdən bəhs edən tarixi nəsr nümunələrində Naxçıvanla bağlı məqamlar Naxçıvanı öyrənmək baxımından da əhəmiyyətlidir.

---

1. Həbibbəyli İ.Ə. Ədəbiyyatda Naxçıvan, Naxçıvanda ədəbiyyat // Naxçıvan Dövlət Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2005, №16, s. 4.

Azərbaycan intibah mədəniyyəti dövrü-XI-XII əsrləri əhatə edən nəsr nümunələrinin bir qismində mövzu birbaşa Naxçıvanla bağlıdır. Hüseyn İbrahimovun "Əsrin onda biri", Əzizə Cəfərzadənin "Cəlaliyyə" kimi roman və povestlərində tarix, müasir dövr və yazıçının müvafiq tarixi dövrə münasibəti məsələləri diqqət çəkiləsi məqamlardandır. Burada Naxçıvan tarixinin müvafiq dövrü tarixi mənbələrə uyğun şəkildə canlandırılmışdır. XI-XIV əsrlər tariximizdən bəhs edən tarixi mövzulu nəsr əsərlərinin bir qismində isə əsərin müəyyən hissələrində Naxçıvandan bəhs olunmuşdur. Tarixi roman məktəbinin banisi Məmməd Səid Ordubadinin "Qılınc və qələm", Oqtay Salamzadənin "Əsrlərin sirri", tarixçi-yazıçı Mahmud İsmayılın "Xaqani", Əhməd İsayevin "Üsyan" kimi romanlarında Naxçıvanla bağlı olan məqamlar az olmasına baxmayaraq müvafiq dövrdə Naxçıvanın ictimai-siyasi vəziyyəti, ədəbi-mədəni mühiti, məişəti ilə bağlı dolğun informasiya verilir ki, bu da ədəbi-tarixi baxımdan yüksək əhəmiyyət daşıyır.

Bəhs olunan ədəbi nümunələrdə Naxçıvanın Azərbaycan tarixindəki yeri müvafiq tarixi mənbələrə uyğun şəkildə əks etdirilmiş, ədəbiyyatşünaslığın janr qarşısında qoyduğu tələblər əsasən gözlənilmişdir.

Yarımfəsildə müstəqillik illərində yazılmış əsərlərlə yanaşı sovetlər dönəmində yazılmış və tədqiq olunmuş əsərlərə də müstəqillik illərinin tələbləri ilə milli mövqədən baxış formalaşdırmaq qarşıda əsas vəzifə kimi müəyyənləşdirilmişdir.

Birinci fəslin **"XIV-XVIII əsrlər Naxçıvan tarixi bədii nəsrdə"** adlanan ikinci yarımfəslində Azərbaycanda teymurilərin hakimiyyəti, Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövrü Azərbaycan, Naxçıvan tarixinin tarixi nəsrdə əks etdirilməsi məsələlərindən bəhs olunur. Mövzusunun birbaşa Naxçıvandan alındığı Zaman Qarayevin "Əlincə qalası" romanı, Həmid Arzulunun "Göy geyimli fateh" hekayəsində müvafiq dövrdə Azərbaycan tarixində Naxçıvanın yeri, həmçinin Naxçıvanda yerləşən Əlincə qalasındakı müdafiə hərəkatından bədii planda bəhs olunmuşdur. Xalq yazıçısı İsa Hüseynovun "Məhşər", Mahmud İsmayılın "İki od arasında", Fərman Kərimzadənin "Xudafərin körpüsü", Yunis Oğuzun "Təhmasib şah", Elçin Hüseynbəylinin "Şah Abbas", Yunis Oğuzun "Əmir Teymur: zirvəyə doğru" və "Əmir Teymur: dünyanın hakimi" dilogiyası da bu yarımfəsildə tədqiqata cəlb olunmuşdur. Bu əsərlərin Naxçıvandan bəhs olunan bölmələrində Naxçıvan tarixi dolğunluqla əks olunmuşdur. Qeyd edək ki, Yunis Oğuzun "Təhmasib şah", Elçin Hüseynbəylinin "Şah Abbas", Yunis Oğuzun "Əmir Teymur: zirvəyə doğru" və "Əmir Teymur: dünyanın hakimi" dilogiyası ilk dəfə

olaraq tərəfimizdən sistemli şəkildə tədqiq olunmaqla vurğulanmışdır ki, Azərbaycan tarixində adları diqqət mərkəzindən kənarda qalan Təhmasib şah, Şah Abbas kimi tarixi simaların obrazı tarixi dəqiqliklə işlənmişdir. Yunis Oğuzun "Təhmasib şah" romanında Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətainin oğlu, eyni zamanda dövlətin tarixində ən az öyrənilmiş mərhələ sayılan şah Təhmasibin hakimiyyət dövrü və həyatı mənbələrə, müvafiq ədəbi və tarixi əsərlərə istinad edilməklə qələmə alınmışdır. Dilogiyada isə Əmir Teymurun tarixi siması, hakimiyyət illəri türk dünyasındakı Teymur obrazı, sovetlər dövründə Teymur şəxsiyyətinə qarşı olan münasibətlər də nəzərə alınmaqla müəllifin türkoloq kimliyinin də bilavasitə təsiri ilə uğurlu bədii əsər ortaya qoyulmuşdur. Elçin Hüseynbəylinin "Şah Abbas" romanında isə hələ sovet dövründə haqqında müxtəlif fikirlər formalaşdırılmış, daha çox İran Səfəvilər dövlətinin başçısı kimi təqdim olunan şah Abbasın hakimiyyət və həyat yolu işıqlandırılmışdır.

Eyni zamanda tarixi roman janrının ən yaxşı nümunələrindən sayılan İsa Hüseynovun "Məhşər" romanında Azərbaycan təsəvvüf ədəbiyyatının zirvələrindən olan hürufi şair İmadəddin Nəsiminin həyatı, dövrü, ədəbi və ideoloji fəaliyyəti ilə yanaşı dövrün bir çox gerçəklikləri də öz əksini tapmış, teymurilərin Azərbaycanda hakimiyyəti illəri mənbələrə, elmi ədəbiyyata uyğun şəkildə təsvir olunmuşdur. Zaman Qarayevin "Əlincə qalası" romanında da Əmir Teymurun Azərbaycanı istilası dövrü, Naxçıvandakı Əlincə qalasını on dörd il mühasirədə saxlaması, qalanın müdafiəsinin təşkili, həmçinin digər Azərbaycan şəhərlərindən müdafiə üçün qalaya köməklik edilməsi kimi məqamlar işıqlandırılmışdır. Mahmud İsmayılın "İki od arasında" romanında isə təxminən eyni dövrün hadisələrindən- Azərbaycanın Əmir Teymur və İldırım Bayazid arasındakı döyüş meydanına çevrilməsi, şəhərlərin talanması, türk dünyasının bu iki nəhəng imperiyasının biri-birini zəiflətməsi, bu iki "od" arasında qalan Azərbaycan torpaqlarının acınacaqlı vəziyyəti bədii planda qələmə alınmışdır.

Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanında isə Azərbaycan Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətainin hakimiyyət illəri, ədəbi və ictimai fəaliyytinin müəyyən dövrü qələmə alınmaqla Səfəvilər dövlətinin formalaşma dövrü, imperiyaya çevrilməsi yolu təsvir edilmişdir. Romanda müəyyən epizodlarda Azərbaycanın tərkibində Naxçıvanın yeri və mövqeyindən də söz açılmış, XVI əsrədə Naxçıvanın bölgədəki vəziyyəti tarixi reallıqlara uyğun şəkildə canlandırılmışdır.

Nəzərə alsaq ki, hekayə janrı nəsrin həcmcə kiçik formasıdır və buraya hansısa tarixi dövr və hadisəni sığışdırmaq çətindir, o zaman Həmid Arzulunun teymurilər dövründən, Əlincə qalanın on dörd illik mühasirəsindən və müdafiəsindən bəhs edən, Əmir Teymur obrazının yaradıldığı "Göy geyimli fateh" hekayəsi də diqqət mərkəzinə çəkiləsi nümunələrdəndir.

Yarımfəsli əhatə edən roman, povest və hekayələrdə Naxçıvan tarixinin, eləcə də görkəmli tarixi şəxsiyyətlərin həyatı və fəaliyyətinin Naxçıvanla bağlı olan dövrləri müvafiq tarixi mənbələrlə müqayisəli şəkildə öyrənilmiş, həmçinin hər bir əsərin nəzəri və bədii keyfiyyətləri incələnmişdir.

İkinci fəsil **"Naxçıvanın XVIII əsr –XX əsrin əvvəlləri tarixinin və görkəmli şəxsiyyətlərin bədii nəsrdə əks etdirilməsi problemləri"** adlanır. Fəslin **"Dövrün sosial-siyasi prosesləri tarixi nəsr müstəvisində**" adlı birinci yarımfəslində xanlıqlar dövrü və Azərbaycanın Rusiya tərəfindən işğalı mərhələsi mövzu olaraq alınan tarixi romanlarda tarixi reallıqların əks etdirilməsi, Naxçıvanın bu dönəmdəki yeri və rolu kimi məsələlərdən bəhs olunur.

Səfəvilər dövlətinin zəifləməsindən sonra Azərbaycanda ayrı-ayrı xanlıqlara parçalanma, xanlıqlar arasındakı çəkişmələr, hər xanlığın müstəqil siyasət yeritməsi prosesi gedirdi. Güllü Məmmədovanın "Kalbalı xan" romanında bu kimi siyasi proseslərin cərəyan etdiyi çətin və gərgin bir dövrün proseslərindən bəhs olunur. Naxçıvanın xanlıqlar və bölgə dövlətləri arasında mübarizə meydanı olmasının tarixi-siyasi mahiyyəti yazıçı tərəfindən açılır, dövrə aydın münasibət formalaşdırılır. Eyni zamanda bu dövrdə Naxçıvanın bölgədəki yeri, ticari əhəmiyyəti, ictimai-siyasi həyatı, sosial-mədəni vəziyyəti, Naxçıvanda elmə, ədəbiyyata verilən dəyər, mədəni proseslərin Kalbalı xan tərəfindən təqdir və təbliğ edilməsi kimi problemlər romanda ciddi şəkildə qoyulur. Əsərin anlaşıqlı dili, üslubi xüsusiyyətləri diqqəti cəlb edir.

Yazıçı-publisist Məhərrəm Zamanın müstəqillik illərində yazılmış "Maxtalı" romanında Şərur rayonunun Maxta kəndində doğulmuş, XIX əsrdə Qafqazda sayılıb-seçilən diplomatlardan olan Maxtalı Hümbətin həyatı, fəaliyyəti fonunda Qafqazda gedən siyasi proseslər təsvir olunur. Eyni zamanda Naxçıvanın da bütün bu siyasi proseslərin, çar Rusiyasının tərkibindəki yeri və mövqeyindən, mədəni inkişafından eləcə də burada baş verən sosial-siyasi proseslərdən əhatəli şəkildə bəhs olunur.

Tarixi nəsrin mövzu dairəsində əhəmiyyətli yerlərdən birini də qaçaqçılıq hərəkatından bəhs edən roman və povestlər tutur. Bu sahədə çar

Rusiyasına qarşı mübarizədə ad çıxarmış, fəaliyyətinin əhəmiyyətli qismi Naxçıvanla bağlı olan Qaçaq Nəbi və qaçaqçılıq hərəkatından bəhs edən maraqlı nəsr nümunələri də qələmə alınmışdır. Folklorşünas-yazıçı Həsən Qasımovun "Dağlara çəkildi" povestində Nəbinin ailəsi və mühitindən, onların kəndində çar rejiminin yaratdığı özbaşınalıqlardan, Nəbini qaçaqçılığa aparan yolun sosial-siyasi mənzərəsindən bəhs olunur. Cəlal Bərgüşadın "Boz atın belində" romanında isə Nəbinin qaçaqçılıq etdiyi dövrdəki fəaliyyəti, el dilində Qaçaq Nəbiyə qoşulmuş nəğmələr, canlı şahidlərinin dilindən toplanmış rəvayət və gerçəklər bədii planda işlənmişdir. Qaçaqların, eləcə də Həcər xanımın Nəbinin inandığı haqq yolundakı mübarizəsində ona dayaq olması, xalqın firavanlığı üçün onların gördükləri işlər Nəbini xalq yaddaşında qəhrəmanlaşdırdığı kimi onların yolunun da ədalət yolu olduğuna sadə xalqda inam yaratmışdır. Yazıçı böyük həssaslıqla bu kimi məsələlərə diqqət yönəldir, bu səhnələrdə müvafiq nəğmələrdən istifadə etməklə yüksək ovqat yaradır.

Azərbaycan ədəbiyyatında hələ sovetlər dövründə tarixi nəsrin uğurlu nümunəsi kimi dəyərləndirilən əsərlərdən biri də Əyyub Abbasovun "Zəngəzur" romanı olmuşdur. Müstəqillik illərinin prizmasından, Azərbaycançılıq ideologiyası kontekstindən yanaşdıqda sosialist ideologiyasının daşıyıcısı olan məqamlarını itirsə də, roman, XIX əsr Azərbaycan həyatının, Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalının ermənilər tərəfindən həmlələrə məruz qalması, bunun əslində I Pyotr dövründən qalma qondarma "Böyük Ermənistan" xülyasının tərkib hissəsi olması, zaman-zaman torpaqlarımıza qarşı baş qaldıran erməni iddialarının əslində bu siyasətin tərkibi olması kimi gerçəkliyin aşkarlanmasında roman əhəmiyyətli rol oynayır. Eyni zamanda XIX əsr Azərbaycan həyatının bir sıra özünəməxsus, regional xüsusiyyətlərinin öyrənilməsi, məişət şəraitinin, sosial proseslərin aşkarlanması baxımından da romanın əvəzsiz xidmətləri vardır. Romanda Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvanın müvafiq dövrdəki həyatının, ictimai-siyasi vəziyyətinin bədii şəkildə əks olunduğu məqamlar diqqətəlayiq məqamlardır.

Beləliklə, Güllü Məmmədovanın "Kalbalı xan", Məhərrəm Zamanının "Maxtalı", Cəlal Bərgüşadın "Boz atın belində", Həsən Qasımovun "Dağlara çəkildi", Əyyub Abbasovun "Zəngəzur" kimi roman və povestlərində Azərbaycan tarixinin dövrün reallıqlarına uyğun canlandırılması, bu dövrdə Naxçıvanın ictimai-siyasi həyatının təqdimi məsələlərindən də əhatəli şəkildə bəhs olunmuşdur ki, bu da XVIII-XIX əsr

Naxçıvanın geniş ictimaiyyətə çatdırılması baxımından olduqca əhəmiyyətlidir.

İkinci fəslin **"Tarixi nəsrdə sənətkar və zaman problemi"** adlanan ikinci yarımfəslində isə tarixi nəsrin mövzu qaynaqlarından biri kimi dəyərləndirilən görkəmli tarixi şəxsiyyətlərin həyatı və fəaliyyətinin qələmə alınması problemi qoyulmuşdur. Tarixi dövrün məhz mənbələrə uyğun şəkildə əks etdirilməsi tarixi şəxsiyyətin xarakter olaraq açılmasında önəmli rol oynayır. Qeyd edək ki, Azərbaycan tarixinin ayrılmaz tərkib hissəsi kimi Naxçıvan həqiqətlərinin ədəbi müstəvidə işlənməsi hər zaman janr qarşısında duran aktual problem olmuşdur. Mövzununun birbaşa Naxçıvanla bağlı olduğu Güllü Məmmədovanın "Qarabəkir əfsanəsi" romanı, Novruz Nehrəmlinin "Zülmətdə işıq" povesti ilə yanaşı Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz", Pənahi Makulunun "Xiyabani" kimi müəyyən hissələri Naxçıvandan alınmış romanlarda sənətkar, yaradıcı mühit, tarixi şərait, milli düşüncə, dövlətçilik maraqları və bu kimi məsələlərə toxunulur, bütün bunları zəruri edən ictimai-siyasi şəraitin ədəbi müstəvidə canlandırılması məsələləri öz bədii həllini tapır. Belə ki, "Dumanlı Təbriz" romanında ziddiyyətli və qarışıq bir dövrün siyasi, mədəni prosesləri, inqilabi hərəkat və bunu məqbul edən mühitin sosial planda əks etdirilməsindən danışan görkəmli ustad Məmməd Səid Ordubadinin özünəməxsus yaradıcılıq manerası əsərdə aydın şəkildə görünür. Süjetə oxunaqlılıq gətirən ədəbi cəhdlər edən yazıçı özünəməxsus dili və üslubu ilə diqqəti cəlb edir. Cənubi Azərbaycandakı məşrutə hərəkatının içərisində olmuş, baş qəhrəman Əbülhəsən bəyin prototipi olan yazıçının şahidi olduğu hadisələri dolğunluqla əks etdirdiyini görürük. Bunu dövrə aid mənbələr, mövcud ədəbiyyatşünaslıq materialları da təsdiqləməkdədir ki, janrın ilk nümunələri olmasına baxmayaraq əsər bitkin bir nümunədir. Azərbaycan ədəbiyyatında tarixi roman janrının sistemli tədqiqatçısı professor Yavuz Axundlu "Dumanlı Təbriz" romanı janrın uğurlu nümunəsi sayaraq yazır: "... tarixi romanda xalqın həyatı... göstərilməli, bədii obrazı yaradılmalıdır" [1].

Təxminən eyni dövrün hadisələrindən bəhs edən maraqlı romanlardan bir də Pənahi Makulunun "Xiyabani" əsəridir. Romanda Cənubi Azərbaycan məşrutə hərəkatının rəhbəri olan Xiyabaninin həyatının bu dövrü ilə yanaşı məşrutə hərəkatının doğuşu, bunun üçün maraqlı olan qüvvələr, hərəkatın gedişi və məğlubiyyəti çoxsaylı mənbələrə istinad

---

1 Axundlu Y. İ. Azərbaycan romanı: mərhələlər, problemlər. Bakı: Adiloğlu, 2005, 550 s.

edilərək siyasi ayıqlıqla təsvir edilmişdir. Romanda Xiyabani bitkin surət, fəal inqilabçı kimi təqdim olunmaqla yanaşı həm də xarakterik özünəməxsusluqları ilə də yadda qalır ki, bu da obrazın tarixiliyi baxımından əhəmiyyətlidir.

Müstəqillik illərində Azərbaycan ədəbiyyatında digər janrlarda olduğu kimi tarixi roman sahəsində də bir canlanma oldu. Bunun səbəbi isə müstəqilliyin verdiyi imkanlardan istifadə edərək sovet dövründə qaranlıqda qalan məsələləri aydınlatmaq zərurəti idi. Belə ki, XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət olduqca gərgin idi və bu da öz növbəsində müəyyən problemlər yaradırdı. Çar rejiminin dağılması, Azərbaycanda Xalq Cümhuriyyətinin qurulması, Cümhuriyyətin devrilməsi və Azərbaycanın SSRİ-nin tərkibinə qatılması Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da ağır günlərin, talan və qırğınların baş verməsinə səbəb oldu. Güllü Məmmədovanın "Qarabəkir əfsanəsi" romanında 1918-1920-ci illərdə Qafqaz cəbhəsi 11-ci kolordu komutanı Kazım Qarabəkir paşanın Naxçıvanı erməni qırğınları və xarici dövlətlərin işğalından qurtarmaq üçün Naxçıvana gəlməsi, Naxçıvanın müdafiəsi işində mühüm xidmətləri olan görkəmli tarixi simalarla birgə mübarizəsindən bəhs olunur. Romanın birinci hissəsində yazıçının gərgin axtarışları nəticəsində Qarabəkir paşanın uşaqlıq illəri, ailəsi və onun hərbiçi kimi yetişməsində böyük rol oynayan mühiti haqqında ətraflı məlumat verilir. İkinci hissədə isə paşanın hərbi səfərləri, Elazığ, Ərzurum, Qars, İğdır kimi bölgələrdən Andronikin başçılıq etdiyi azğın erməni ordusunu çıxarması və bu zaman göstərdiyi hərbi rəşadətlər bədii planda təqdim olunur. Paşanın Naxçıvana gəlişi, bu dövrdə Naxçıvandakı vəziyyət, ermənilərin bu torpaqlarda törətdiyi qırğın və qətliamlar, buradakı siyasi və mədəni proses haqqında dolğun fikir formalaşdırır, paşanın Naxçıvanda qarşılanması, birgə mübarizə nəticəsində qısa zamanda kəndlərdən ermənilərin uzaqlaşdırılması və yerli idarəçiliyi möhkəmləndirmək üçün görülən işlər geniş şəkildə romanda öz əksini tapır. Naxçıvan xanları nəslindən olan Cəfərqulu xan, III Kalbalı xan və digər sərkərdələrin səyi nəticəsində Araz-Türk Cümhuriyyətinin yaradılması və fəaliyyəti, paşanın Naxçıvanda maarif və mədəniyyətin inkişafı üçün etdiyi yardımlar dövrə aid arxiv sənədləri, şahidlərin xatirələri və çoxsaylı elmi mənbələrə uyğun olaraq işlənmiş, dövrün canlı salnaməsi yaradılmışdır. Sonda isə Birinci Dünya Müharibəsində Osmanlı imperiyasının məğlubiyyətə uğraması və Paris Sülh Konfransındakı öhdəliklərinin Qafqazdan ordusunu geri çəkməsini gərəkdirməsi, bundan istifadə edən ermənilərin yenidən kəndlərdə talanlar, qırğınlar törətmək cəhdləri, Naxçıvanda ingilis,

amerikan nümayəndəliklərinin, ermənilərin havadarlarının səyinə baxmayaraq naxçıvanlıların doğma torpaqlarını rəşadətlə qoruması, yüzlərlə vətən övladının qanı bahasına Naxçıvanı ermənilərə verməməsi, nəhayətdə Naxçıvanın da SSRİ-yə qatılması kimi tarixi hadisələrin bədii təqdimi ilə roman başa çatır.

Bu yarımfəsildə Novruz Nehrəmlinin "Zülmətdə işıq" povesti də tədqiqat obyekti kimi seçilmişdir. Povestdə böyük demokrat ədib Cəlil Məmmədquluzadənin həyatı və pedaqoji fəaliyyətinin Nehrəm dövrü tarixi faktlara uyğun şəkildə canlandırılmışdır. Əsərdə görkəmli ədibin Nehrəmə gəlişi, bu zaman Nehrəmdə digər bölgələrdə olduğu kimi, dini fanatizmin hələ də hökmran olması, nəinki qızların, hətta oğlanların da məktəb və mədrəsələrə buraxılmaması, dini zümrələrin və çar idarəçilərinin yaydığı cəhalətin sıravi bir Azərbaycan kəndində yaratdığı vəziyyət və burada Cəlil Məmmədquluzadənin qısa zamanda məktəbə qız şagirdlər cəlb etməsi və bu zaman ona qarşı olan haqsız hücumlardan bəhs olunur.

Beləliklə, haqqında danışdığımız roman və povestlərin hər birində tarix və müasir gerçəklik, həmçinin yazıçı mövqeyi və tarixi şəxsiyyət kimi problemlərə yanaşma tərzi və ədəbiyyatşünaslığın mövqeyi məsələləri diqqət mərkəzinə çəkilməklə yanaşı bəhs olunan əsərlərdə hadisələrin mərkəzində Naxçıvan həqiqətləri, Naxçıvan ziyalılarının obrazının yaradılması, bu dövrdə Naxçıvanın taleyində əhəmiyyətli rol oynayan tarixi simalar və onların Naxçıvan üçün gördükləri əməli iş tədqiqatın mərkəzində tutulmuşdur.

**"Müasir tarixi gerçəkliklər və bədii nəsr"** adlanan üçüncü fəsil üç yarımfəsildən ibarətdir. **"Tarixi nəsrdə Naxçıvanın sovet dövrünə münasibət məsələləri"** adlanan birinci yarımfəsildə Hüseyn İbrahimovun "Günəş doğan yerdə", Həmid Arzulunun "Qaçaq Quşdan", Güllü Məmmədovanın "Qaçaq Quşdan", Sadıq Zeynaloğlunun "Tarixin qanlı yaddaşı" kimi roman və povestləri tədqiqata cəlb olunmuşdur.

1920-1930-cu illərdə yerli xalqın hakim dairələrdən narazılığının nəticəsi kimi Naxçıvanda da sovet hakimiyyətinə qarşı mübarizə aparan qüvvələr meydana çıxdı. Bu mənada məşhur el qaçağı Quşdanın adı da Naxçıvanda məlum mübarizənin öncülləri sırasında səsləndirilmişdir. Yazıçı Həmid Arzulunun "Qaçaq Quşdan" romanında Quşdanın uşaqlıq illərindən başlayaraq qaçaqçılıq etdiyi illər, erməni və rus birləşmələrinə qarşı mübarizəsi və ölümünə qədərki bir dövr izlənilir. Roman ədəbiyyatşünaslığımızda diqqəti cəlb edən nümunələr sırasındadır. Bu barədə akademik Bəkir Nəbiyev yazır: ""Qaçaq Quşdan" sənədli

romandır... Müəllif hərdən publisistik üslubla o dövrün siyasi-ictimai mənzərəsini yaradır” [1].

Quşdanın yaşadığı Şahbuz rayonunun Keçili kəndi və Naxçıvanın digər kəndlərindəki vəziyyət də romanda ətraflı şəkildə təsvir olunur. Quşdanın dilindən yerlərdə özbaşınalıq edən idarəçilər və NKVD sıralarına daxil olmuş ermənilərin 30-cu illərdə Naxçıvanda törətdiyi qırğınlar bədii planda verilir. 1918-1920-ci illərdəki qarışıqlıq zamanı ermənilərə müqavimət göstərənlərin 30-cu illərdə kolxozçuluğa qarşı çıxır ittihamı ilə güllələnməsi faktı müvafiq tarixi sənədlərə və dövrün canlı şahidlərinin xatirələrinə istinadən romanda qələmə alınmışdır. Həmid Arzulunu Quşdan haqqında roman yazmağa sövq edən Sadıq Zeynaloğlunun arxiv sənədlərinə istinadən yazdığı “Tarixin qanlı yaddaşı” adlı sənədli povesti də bu mövzuda yazılmış dəyərli əsərdir. Povestdə “Keçili işi” və “Milax işi” adı ilə NKVD arxivlərində saxlanan, Keçili və Milax kəndləri ilə yanaşı ətraf kəndlərdə 1918-1920-ci illərdə ermənilərə qarşı müqavimət göstərənlərin siyahısından bəhs olunur. Əsərdə müvafiq mənbələrə istinadən göstərilir ki, bu planı həyata keçirənlərin başında Orbelyan adlı NKVD əməkdaşı durmuşdur. Bədii cəhətdən zəif olan sənədli povestdə günahsız insanlara-Keçili və Milax kənd sakinlərinə qarşı həyata keçirilən represiya siyasətinə faktlarla aydınlıq gətirilir. Yazıçı Həmid Arzulu da “Tarixin qanlı yaddaşı” sənədli povestində bəhs olunan gerçəkləri və Keçili kəndində bütün bu qırğınlara qarşı çıxan Quşdanın qəhrəmanlıqlarını bədiiləşdirərək oxunaqlı roman yazmışdır.

Qeyd edək ki, yazıçı Güllü Məmmədova Qaçaq Quşdan mövzusuna hələ sovet dövründə müraciət etmiş, sovet dövrü ədəbiyyatımıza uyğun şəkildə “Qaçaq Quşdan” povestini qələmə almış, amma əsəri müstəqillik illərində çap etdirmişdir. Povestdə Quşdanın haqqında gəzən rəvayətlərdən də bəhrələnilməklə onun qaçaqçılıq etdiyi yerlər, bu dövrdə Naxçıvandakı vəziyyət, sosial mühit barədəki müəllif fikirləri əsərin informasiya bazasını zənginləşdirir. Povest bitkin süjeti, oxunaqlı dili ilə yadda qalır. “Qaçaq Quşdan” povestində, “Tarixin qanlı yaddaşı” sənədli povestində həm də dövrə münasibət məsələlərindən sistemli şəkildə bəhs olunmuşdur.

Hüseyn İbrahimovun “Günəş doğan yerdə” romanında da bəhs olunan digər əsərlərdə olduğu kimi Azərbaycanda sovet hakimiyyətinin qurulması prosesi, bunu doğuran tarixi şərait mənbələrə uyğun şəkildə bədii planda öz həllini tapır. Romanda bəhs olunan dövrdə Azərbaycanın

---

[1] Nəbiyev B. A. Roman və müasir qəhrəman. Bakı: Yazıçı, 1987, 296 s.

tərkibində Naxçıvan və doğma diyarın ictimai-siyasi vəziyyəti dövrün fonunda ətraflı şəkildə canlandırılır.

**"Zaman, xalq və ziyalı problemi"** adlanan ikinci yarımfəsildə tədqiqata cəlb olunan əsərlərdə isə sovetlər dönəmində Azərbaycan ziyalılığına qarşı repressiya siyasəti, sovet ədəbiyyatının ideoloji basqılar altında mövzu axtarışları, Azərbaycan sovet rəhbərlərinə qarşı formalaşdırılmış münasibət və bütün bunların kökündə duran siyasi oyunların Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana təsiri məsələlərinin tarixi nəsrdə əks etdirilməsi poblemləri diqqət mərkəzinə çəkilmişdir. Hüseyn İbrahimovun "Böhtan", Süleyman Rəhimovun "Uğundu", Məsud Əlioğlunun "Məslək qardaşları", Çingiz Hüseynovun "Doktor N" kimi roman, povest və hekayələrin ideya istiqamətləri, sənətkarlıq xüsusiyyətlərinin özünəməxsus cəhətləri tədqiqat obyektinə çevrilmişdir.

Hüseyn İbrahimovun "Böhtan" romanında Azərbaycan romantizminin görkəmli siması, mütəfəkkir dramaturq Hüseyn Cavidin obrazı yaradılır, dahi dramaturqun sürgün illəri və sürgündə ikən xatırladığı uşaqlıq, gənclik və yetkinlik dövrü ilə bağlı xatirələri vasitəsi ilə Cavidin həyatı, faciəli taleyi, yaradıcılıq yolu, yüzlərlə cavidləri represiyayaya götürən siyasi şərait haqqında müfəssəl məlumat verilir. Yazıçı dahi dramaturqun həyatı və fəaliyyəti ilə bağlı ən müxtəlif mənbələri araşdırmış, ayrı-ayrı dövrlərdə Cavid irsinə münasibət və bunun kökündə duran səbəbləri siyasi ayıqlıqla göstərməyə çalışmışdır. Xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığına, o cümlədən "Böhtan" romanına yüksək qiymət verən akademik İsa Həbibbəyli yazır: "Hüseyn İbrahimovun... romanlarında... tarixilik və müasirlik ön mövqeyə çəkilmişdir" [1].

Süleyman Rəhimov "Uğundu" povestində isə fərqli süjetqurma modelindən istifadə etməklə əslində sovet cəmiyyətindəki bürokratizmə qamçı vurmağa çalışmışdır. Əsər XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında tənqidi-realizmin görkəmli siması, "Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadəyə müraciət şəklində yazılmışdır. Yazıçı Mirzə Cəlillə görkəmli ədibin doğulduğu Naxçıvan torpağına xəyali səyahət edir və özünün də bir vaxtlar Naxçıvanda işlədiyi illəri xatırlayır. Povestdə həmin dövrlərdə Naxçıvanın vəziyyəti, sosial-mədəni durumu, həmçinin Mirzə Cəlil və onun müasirləri haqqındakı müəllifin zəngin informasiyası və süjet daxilində bundan məharətlə istifadənin şahidi oluruq. Çingiz Hüseynovun iki hissəli "Doktor N" adlı

---

[1] Həbibbəyli İ.Ə. Xalq yazıçısı Hüseyn İbrahimov. Ədəbi tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s.

romanında isə XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı və ictimai fikrinin iki görkəmli siması olan Nəriman Nərimanov və Məmməd Əmin Rəsulzadənin obrazı yaradılmışdır.

Böyük demokrat ədib Cəlil Məmmədquluzadənin də həyatı və fəaliyyəti ilə bağlı dram əsərləri olduğu kimi povest və hekayələr də yazılmışdır. Məsud Əlioğlunun "Məslək qardaşları" hekayəsi də bu mənada maraq doğuran tarixi mövzulu hekayələrdəndir.

**"Azərbaycanın müstəqilliyi uğrunda mübarizə və müstəqilliyi dövründəki Naxçıvan həqiqətləri bədii nəsrdə"** adlı üçüncü yarımfəsildə isə Azərbaycanı müstəqilliyə aparan yolu izləyən, eyni zamanda müstəqillik illərində Azərbaycan, o cümlədən Naxçıvan həyatının bir çox mənzərələrini bədii dillə canlandıran tarixi nəsr nümunələri tədqiqat obyekti kimi müəyyənləşdirilmiş, müvafiq tarixi mənbələrlə paralelliklər aparılmışdır. Həmid Arzulunun "Qara xəncər" romanında sovetlər dönəmində SSRİ DTK-sında işləyən ermənilərin birgə əməliyyat planı nəticəsində Azərbaycanın maddi mədəniyyət abidələrinin, tarixi dəyəri yüksək olan əşyalarının oğurlanması siyasəti və buna rəhbərliyin biganə qalması, amma milli təəssübkeşlik hissi güclü olan vətəndaşlarımızın uzaqgörənliyi nəticəsində bunun qarşısının alınması üzərində qurulan hadisələrdən bəhs olunur. Qeyd edək ki, romanda haqqında bəhs olunan tarixi əşya XIV əsrdə Əmir Teymura qarşı Əlincə qalasında müdafiə olunanlar içərisində qala rəisi olan Məlik Tahirin Əmir Altuna bağışladığı xəncərdir. Nataşa adlı ermənin nə qədər cəhd etsə də öz xain simasını, erməni niyyətini gizlədə bilməməsi və 1970-ci illərə aid bir çox siyasi proseslər müəllif tərəfindən düzgün analiz edilir, siyasi ayıqlıqla hadisələrə qiymət verilir, ortalığa çıxarılan fikirlər milli ideologiyamıza uyğunluğu ilə diqqəti cəlb edir.

Güllü Məmmədovanın lirik-psixoloji planda qələmə aldığı "Mənim üçün varsan" romanında 1970-1980-ci illərin sovet cəmiyyətindəki bir sıra nöqsanların diqqət mərkəzinə çəkilməsi, xalqımızın düşmənləri olan ermənilərin zaman-zaman yürütdüyü məkrli siyasət, ərazi iddiaları tənqid hədəfinə çevrilir. Sovet ordusu sıralarında Əfqanıstanda döyüşən qəhrəmanın həlak olma xəbərinin çıxması, sevdiyi qızın- Aynurun və onun çevrəsindəki insanların dünyasında bu xəbərin doğurduğu əks-səda, bu kimi sıradan insanların sosial həyatı, mənəvi dünyası, fərdi yaşam psixologiyası, sevgiləri, sədaqətləri və bütün bunların fonunda Azərbaycan, Naxçıvan həyatından yaradılmış tabloda Naxçıvanın məişəti, mədəniyyəti, bəhs olunan dövrdəki siyasi proseslər mətn daxilində özünəməxsus şəkildə bədii həllini tapır. Hər kəsin öldü bildiyi oğlanı yalnız Aynur daxilində

öldürə bilmir, “mənim üçün varsan”- deyir və nəhayətdə nağılvari sonluqla məşuqə öz aşiqinə qovuşur. Əsərdə müəllifin diqqət mərkəzinə çəkmək istədiyi məsələlərdən biri də sovet dövründə rəhbərliyin hər zaman ermənilərə müəyyən qədər güzəştlər etməsi, kəndlərimizdən, örüş yerlərimizdən ermənilərə verilməsi və vətənpərvər insanların buna etiraz etməsidir. Əsərdə elə o illərdən xalqın ümid yeri olan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də obrazı yaradılmış, dar gündə onun xalqın pənah yeri olduğu özünəməxsus detallarla qələmə alınmışdır. Müstəqillik illərində Naxçıvan mövzusunda qələmə alınan əsərlərdən biri də Fərəc Fərəcovun “Aydın sabahlar” romanıdır. Bu romanda da sovet cəmiyyətinin dağılması, müstəqilliyin yeni başladığı illərdəki boşluqdan istifadə edən bəzi qüvvələrin orqan əməkdaşları sıralarına daxil olması və bürokratizmə şərait yaratması, bundan isə xalqın əziyyət çəkməsi kimi düşündürücü süjetdə dövrə aid bir sıra detallar, hadisələr, siyasi proseslər diqqət mərkəzinə çəkilir. Ağsaqqal, dünyagörmüş kişinin bir gün xalqın pənah yeri olan dahi rəhbərin qayıdacağı, xalqı başsız qoymayacağı inamı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə ünvanlanır və Azərbaycan xalqının tarixi taleyinin ifadəsinə çevrilir. Eyni zamanda Naxçıvanda bu illərdəki bir çox hadisələr tarixdə olduğu kimi bədii əsərdə də təsvir olunur və yaxın tarixin canlı salnaməsinə çevrilir.

Həmid Arzulunun “Qara xəncər”, Fərəc Fərəcovun “Aydın sabahlar”, Güllü Məmmədovanın “Mənim üçün varsan” romanlarında müstəqillik illərində Naxçıvan həyatının müxtəlif sferalardan əks etdirilməsi səviyyəsi maraq doğurur. Bu əsərlərdə müvafiq mənbələrə uyğun şəkildə, tarixi, nəzəri aspektlərdən məsələlərə yanaşılmışdır. Qeyd edək ki, dissertasiyada ilk dəfə Naxçıvan nəsrində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ədəbi obrazı yaradılan tarixi nəsr əsərləri geniş şəkildə tədqiqata cəlb olunmaqla, Ulu öndərin obrazının yaradılmasında müəlliflərin məharəti və tarixi şərait dəyərləndirilmişdir.

Tədqiqatın “**Nəticə”** hissəsində irəli sürülən müddəaları aşağıdakı kimi ümumiləşdirmək olar:

Azərbaycan tarixi nəsrinin zəngin mövzu qaynaqlarından biri də Naxçıvan mövzusudur. Naxçıvan tarixinin müxtəlif dövrlərindən bəhs edən əsərlərdə müvafiq dövrlərdə bölgənin ictimia-siyasi vəziyyəti, yerli, regional xüsusiyyətləri, ədəbi-mədəni proses, əhalinin məişəti öz əksini tapmışdır ki, bu da Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvanı öyrənmək baxımından ədəbi-tarixi əhəmiyyət daşıyır.

Tarixi nəsr nümunələri tarixi mənbələr, mətbuat və ədəbi tənqidin fikirləri əsasında müqayisəli şəkildə dəyərləndirildikdə hadisələrin birbaşa,

yaxud epizodik şəkildə Naxçıvanla bağlılığı həm də ayrı-ayrı dövrlərin, tarixi şəxsiyyətlərin, sənətkarların Naxçıvana münasibəti aydınlaşdırılır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır**:


1. "Cəlaliyyə" povestində Naxçıvan həqiqətləri // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri (humanitar elmlər seriyası). Naxçıvan: Qeyrət, 2011, № 2, s. 53-56.
2. Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" romanında Naxçıvan // NDU-nun Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2012, №2, s. 53-57.
3. "Əlincə qalası" romanı və Naxçıvan // AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" jurnalı. Naxçıvan: 2012, № 3, s. 63-69.
4. "Məhşər" romanında Naxçıvan // AMEA Naxçıvan Bölməsinin Xəbərləri (humanitar və ictimai elmlər seriyası), Naxçıvan: Tusi, 2013, №1, s. 156-164.
5. XI-XIII əsrlərdən bəhs edən tarixi romanlarda Naxçıvan ("Xaqani" və "Üsyan" romanları əsasında) // AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" jurnalı. Naxçıvan: 2013, № 1 s. 49-52.
6. Oqtay Salamzadənin "Əsrlərin sirri" romanında Naxçıvan // Dil və Ədəbiyyat (Beynəlxalq elmi- nəzəri jurnal), Bakı: 2013, № 2(86), s. 117-121.
7. "Böhtan" romanında tarixilik və müasirlik // AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" jurnalı. Naxçıvan: 2013, № 2, s. 58-62.
8. Novruz Nehrəmlinin "Zülmətdə işıq" romanında Mirzə Cəlil obrazı və Naxçıvan // AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" jurnalı. Naxçıvan: 2013, № 3, s. 38-42.
9. Xalq yazıçısı Hüseyn İbrahimovun "Əsrin onda biri" romanında Naxçıvan həqiqətlərinin bədii təqdimi // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri (humanitar elmlər seriyası), Naxçıvan: Qeyrət, 2013, № 2(54), s. 27-32.
10. Nizami dönəmini konu alan tarihi romanlarda dil üslup keyfiyyetleri / "2. Uluslararası Türk Dili ve Edebiyyatı Sempozyumu". Sparta: Süleyman Demirel Üniversitesi. 19-21 Ekim 2011.

11. Həmid Arzulunun “Qaçaq Quşdan” romanı və Naxçıvan həqiqətlərinin bədii əksi // AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun “Axtarışlar” jurnalı. Naxçıvan: 2013, № 4, s. 51-62.

12. Qaçaqçılıq hərəkatından bəhs edən tarixi nəsrdə Naxçıvan // AMEA Əlyazmalar İnstitutunun “Filologiya məsələləri” toplusu, Bakı: 2013, № 8, s. 303-310.

13. Güllü Məmmədovanın “Qarabəkir əfsanəsi” romanında Naxçıvan // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri (humanitar elmlər seriyası), Naxçıvan: Qeyrət, 2014, № 1(57), s. 70-76.

14. Güllü Məmmədovanın “Kalbalı xan” romanında Naxçıvan // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Naxçıvan: Tusi, 2014, № 1, s 197-205.

15. Hekayə janrı və tarixi mövzu // AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun “Axtarışlar” jurnalı. Naxçıvan: 2014, № 1, s. 71-76.

16. Nizami Gəncəvi dövrünü əks etdirən tarixi romanlarda Naxçıvan / “Regional inkişaf, böyük mədəniyyət: mənşə, harmoniya, tipologiya” mövzusunda beynəlxalq konfransın materialları. Naxçıvan: Qeyrət, 2013, s. 39-41.

17. Naxçıvan ədəbi mühitində qələmə alınmış romanlarda ümummilli lider Heydər Əliyev obrazı / “Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunan Azərbaycanşünaslığın Aktual Problemləri” mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı: Elm və Təhsil, 2013, s. 234-236.

18. Müstəqillik illərində qələmə alınan tarixi romanlarda tarixilik və müasirlik / “Ümummilli lider Heydər Əliyevin 91 illik yubileyinə həsr olunan Azərbaycanşünaslığın Aktual Problemləri” mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı: Elm və Təhsil, 2014, s. 274-277.

19. Ermeni-Azerbaycan münasibetleri Azerbaycan tarihi nesrinde / “Uluslararası Tarih Boyunca Türk İdaresinde Ermeniler Sempozyumu”. Kars: 08-10 Mayıs 2014.

20. Azerbaycan tarihi romanlarında Selçuklu dönemi / “I Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu”. Niğde: 18-21 mart 2014.

21. “Böhtan” romanında Nahçıvan // Bilimsel Eksen, Uluslararası sosyal bilimler dergisi, Ankara: 2014, № 11, s. 127-133.

22. Orta asırlar dönemini konu alan Azerbaycan tarihi romanlarında Osmanlı imparatorluğu // Bilimsel Eksen, Uluslararası sosyal bilimler dergisi, Ankara: 2014, № 12, s. 68-74.

23. Нахчыванские темы XI-XII вв.в исторических романах // Гилея, Науковий висникУкраинська Академия Наук, Киев: 2014, Выпуск -84, № 5, с. 207-209.

24. Azerbaycan romanında Kazım Karabekir paşa(Güllü Memmedovanın "Karabekir efsanesi" romanı örneğinde) / "3 Ahlat-Avrasya bilim, kültür ve sanat sempozyumu". Bitlis: 22-24 eylül 2014.

25. Mahmud İsmayılın yaradıcılığında tarixi nəsr və Naxçıvan // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Naxçıvan: Tusi, 2014, № 3, s. 198-204.

26. Hüseyn Cavid obrazı tarixi nəsrdə // AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" jurnalı. Naxçıvan: 2014, № 3, s. 80-85.

**А. Г. Гашимов**

# ТЕМА НАХЧЫВАНА В ИСТОРИЧЕСКОЙ ПРОЗА: ЭТАПЫ, ПРОБЛЕМЫ, ЛИЧНОСТИ

## РЕЗЮМЕ

В диссертационной работе, посвященной теме Нахчывана в исторической прозе, привлечены к анализу этапы, проблемы, личности.

Диссертационная работа сотоит из введения, трех глав, заключения и списка исполь завонной литературы.

Во «Введении» обосновывается актуальность темы, определяются объект, цель и задачи исследования, формулируются выдвигаемые к защите положения, описываются методы и приемы исследования раскрываются научная повизна теоретическая и практическая значимость диссертации даются сведения об апробации и структуре работы.

В первой главе «История древнего и средневекового Нахчывана в художественной прозе» анализирована история Нахчывана до XIV века, а также история Нахчывана в XV-XVII веках нашедшая отражение в художественной прозе. Особое внимание уделено анализу произведений М.С.Ордубади «Меч и перо», О.Саламзаде «Тайна веков», Г.Ибрагимова «Десятая часть века», А.Джафарзаде «Джалалийя», А.Исаева «Восстание», И.Гусейнова «Судный день», З.Гараева «Крепость Алинджа», Г.Арзулу «Завоеватель в синей одежде», Э.Гусейнбейли «Шах Аббас», Ю.Огуза «Тахмасиб шах».

Второя глава «Отображение в художественной прозе истории Нахчывана с XVIII до начала XX веков и ее выдающиеся личности» состоит из двух подразделов. Этот период нашла свое художественное воплощение в произведениях Г.Мамедовой «Келбалы хан», М.Замана «Махталы», Г.Гасымова «Удалился в горы», Дж.Баргюшада «На серогом коне», А.Аббасова «Зенгезур», П.Макулу «Хиябани», Г.Мамедовой «Легенда о Гарабекире», Н.Неграмлы «Свет во тьме». На основе этих историциков исследуются обобщаются Нахчыванская реальность делаются.

Третья глава называется «Современные исторические достоверности и художественная проза». Эта глава посвящается анализу отображения в исторической прозе отношения к советскому периоду Нахчывана, а также проблемам времени, народа, интеллигенции. Здесь освещаются нашедшие отображение в художественной прозе борьба за независимость Азербайджана, нахчыванские реалии в годы независимости.

В «Заключении» обобщаются результаты исследования, предлогаются конкретные рекомендации по усовершенствованию и улучшению изучения данной темы.

**A.H. Hashimov**

## NAKHCHIVAN TOPIC IN HISTORICAL PROSE: STAGES, PROBLEMS, PERSONALITIES


### SUMMARY

Nakhchivan topic in historical prose stages, problems, personalities are investigated in the dissertation.

Dissertation includes introduction, three chapters, the conclusion and the list of the used literature.

The introduction deals with the actuality of the subject, the investigation history, object, the determination of the aim and duties, methodological basis, scientific innovation, theoretical and practical significance, approbation and the system of the thesis.

The first chapter of the dissertation is called “The Ancient and Midlle Ages history of Nakhchivan in literary prose”. In the first chapter the literary development of Nakhchivan history till XIV century, Nakhchivan history in literary prose during the XV-XVII centuries is investigated. The author speaks about M.S.Ordubadi`s “Sword and pen”, O. Salamzada`s “Asirlarin sirri”, H.Ibrahimov`s “Asrin onda biri”, A.Jafarzada`z “Jalaliyya”, A. Isayev`s “Usyan”, I.Huseynov`s “Mahshar”, Z.Garayev`s “Alinja galasi”, H.Arzulu`s “Goy geyimli fateh”, E.Huseynbayli`s “Shah Abbas”, Y.Oghuz`s “Tahmasib shah” and other works.

The second chapter is called “XVIII and the beginning of the XX centuries` history and prominent personalities of Nakhchivan reflection in literary prose”. This chapter is consist of two semi-chapters. G.Mammadova`s “Kalbali khan”, M.Zaman`s “Makhtali”, H.Gasimov`s “Daghlara chakildi”, J.Bargushad`s “Boz atin belinda”, A.Abbasov`s “Zangazur”, P.Makulu`s “Khiyabani”, G.Mammadova`s “Garabakir afsanasi”, N.Nehramli`s “Zulmatda ishig” and etc. works connected with this period are reflected its literary embodiment. Nakhchivan truths are investigated on the basis of these sources.

The third chapter is called “Modern historical reality and literary prose”. In the chapter the investigations are reflected the problems of the attitude to the soviet period of Nakhchivan, time, people, intellectuals, the fighting for the independence of Azerbaijan and the direction of the Nakhchivan truths during the independence in literary prose is grouped.

The concluding part of this thesis summarizes the results of the research, formulates conclusions and suggestions.

Çapa imzalanmışdır: 22.10.2014
Formatı: 60x90,16/1, həcmi: 1.4ç/v
Sifariş: 41 Sayı 100

NDU-nun “Qeyrət” nəşriyyatının mətbəəsində çap olunmuşdur

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АЛИ ГАСАНГУЛУ ОГЛУ ГАШИМОВ**

# ТЕМА НАХЧЫВАНА В ИСТОРИЧЕСКОЙ ПРОЗЕ: ЭТАПЫ, ПРОБЛЕМЫ, ЛИЧНОСТИ.

**5716.01 -Азербайджанская литература**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание степени доктора философии по филологии**

**НАХЧЫВАН-2014**